По большей части, о женщинах, сделавших открытия, которые повлияли на науку, технику и повседневную жизнь, забывали, отметила Вейр в недавнем чате "Вопрос к Америке", организованном Государственным департаментом. "Студенты, изучающие химию, возможно, знают о Стефани Кволек, которая изобрела кевлар - материал, используемый в бронежилетах и пуленепробиваемых шлемах, - но в учебниках для начальной школы всегда подразумевается, что все изобретатели - мужчины. Именно поэтому я продолжаю писать свои книги".

"Чтобы побудить женщин и девочек продолжать искать ответы на многочисленные вопросы, с которыми мы сталкиваемся, - добавила Вейр, - нам необходимо продемонстрировать, что женщины действительно изобретают. Они всегда это делали, и всегда будут". По ее словам, в Соединенных Штатах женщинами зарегистрировано, по меньшей мере, 250 000 патентов.

В дополнение к изобретениям для дома, таким, как капельная кофеварка и автоматический пылесос "Румба", "женщины владеют патентами на новые лекарства и медицинские приборы для лечения самых разных болезней от рака до катаракт", - отметила Вейр. За последние два десятилетия "большинство изобретений, сделанных женщинами, относились к биомедицине". Например, исследования Гертруды Элион привели к первому иммунодепрессанту, первому методу лечения лейкемии и лекарству для борьбы с герпесом. В 1988 году ей была присуждена Нобелевская премия по медицине.

От управления торпедами до сотовых телефонов

Вейр заинтересовалась изобретательницами, когда она работала над статьей для музыкального журнала "Рок". Готовя материал о группе "Манкиз", исполнявшей рок-н-ролл в 1960-е годы, она обнаружила, что мать участника этого коллектива Майкла Несмита Бетт изобрела "жидкую бумагу" - штрих для исправления опечаток, сделанных на пишущей машинке. В итоге Бетт Несмит продала свою компанию почти за 50 миллионов долларов.

Открытие, сделанное Вейр, побудило ее обратить внимание на других женщин, чьи изобретения не получили достойного

признания. Одним из удивительных примеров служит кинозвезда Хейди Ламарр, которая в 1942 году вместе с композитором Джорджем Антейлом запатентовала технологию, ставшую основой для современной мобильной телефонии. Изначально она была задумана как устройство для радиоуправления американскими торпедами в годы Второй мировой войны, но в то время оказалась практически не осуществимой.

В 1890-м году молодая афроамериканка госпожа К. Дж. Уокер, урожденная Сара Бридлав, дочь бывших рабов, изготовила средство для ухода за кожей головы и лечебный состав, избавивший ее от заболевания, из-за которого у нее выпадали волосы. Осознав, что средств ухода за волосам для афроамериканцев почти нет, Уокер основала собственный бизнес и начала продавать свою продукцию чернокожим женщинам. Ее изделия принесли ей миллионное состояние.

Исследования химика Стефани Кволек в компании "Дюпон" привели к созданию кевлара - синтетического материала в пять раз прочнее стали, который используется в пуленепробиваемых жилетах, спортивном оборудовании, барабанах видеоголовок и оболочке оптоволоконного кабеля.

"Типичного образа женщины-изобретательницы нет", - сказала Вейр. Эти изобретательницы - светская дама, запатентовавшая бюстгальтер, специалистка в области авиакосмической химии, которой ставят в заслугу изобретение средства защиты тканей "Скочгард", женщина-инженер из Латинской Америки, чьи изобретения можно найти на космической станции, - "могут быть выходцами из любой дисциплины". Дети тоже могут быть изобретателями, заявила она, упомянув восьмилетнюю девочку, которая предложила устройство для приготовления бекона в микроволновой печи "и сделала свою семью богатой".

По словам Вейр, изобретателям нужны настойчивость, воображение и готовность к упорному труду. "Постоянно появляются новые идеи или проблемы, которые требуют нового решения".

Из Африки

Изобретатели не обязательно должны быть выходцами из экономически привилегированных обществ, указала она. "Идеальным местом для нового изобретателя сегодня является Африка. Сочетание "низких и высоких" технологий - например, сотовые телефоны на солнечной энергии. Системы очистки воды, которые можно поместить в рюкзак. Новые средства транспорта, не требующие бензинового двигателя. Ветротурбины с низкой себестоимость производства. Африка - лучшая испытательная площадка для многих идей!"

Отвечая на вопрос о том, с какими преградами сталкиваются изобретательницы в некоторых странах, Вейр признала, что переменам часто сопротивляются. "Думаю, практическая изобретательская деятельность является мощным двигателем перемен, - добавила она. - Люди не противятся повседневным изделиям, облегчающим жизнь. Их также не очень волнует, кто их изобретает".

Вейр работает в Чикагском музее науки и промышленности над интерактивной экспозицией об изобретательницах, которую планируется открыть в 2009 году. По ее словам, среди возможных экспонатов - волокноотделитель, который вместе с Элаем Уитни запатентовала Кэтрин Литлфилд Грин, одноразовая пеленка, стеклоочиститель, кукла Барби и "Румба".

"Пора признать заслуги там, где они есть, - заявила Вейр. - И доказать молодым женщинам повсюду, что женщины являются и всегда были изобретателями и творцами".

Распространено Бюро международных информационных программ Государственного департамента США:

http://usinfo.state.gov/russki/

Reytinq

AZƏRBAYCAN MANATI DÜNYANIN ƏN DƏYƏRLI VALYUTALARINDAN BİRİ HESAB OLUNUR

Azərbaycan manatı dəyərinə görə dünyanın 100 iri valyutası sırasında 9-cu yerdədir. Ros Biznes Konsaltinqin hesablamalarına görə, Azərbaycan manatı dünyada ən dəyərli valyutalardan biridir. Manat son zamanlar dəyər qazanan valyutalardan biri hesab olunur və son dörd ildə milli valyuta əhəmiyyətli dərəcədə güclənmişdir. Dünyanın 100 qiymətli valyutası sırasında manatımız birinci onluqda yer almışdır.

Milli Bankın tədqiqatlar və statistika departamentindən AzərTAc-a bildirmişlər ki, manatın dəyərinin belə yüksək formalaşması iki amilin təsiri ilə xarakterizə olunur. Birinci amil ölkənin dinamik inkişafına, iqtisadi göstəricilərinə, ümumdaxili məhsulun artım tempinə görə Azərbaycanın dünya dövlətləri sırasında lider olmasıdır. İkinci amil isə Amerika Birləşmiş Ştatları dollarının ucuzlaşmasıdır. Belə ki, 2003-cü ildən başlayaraq dünyada dolların ucuzlaşması meylləri müşahidə olunur. Həm də indi dolların təklifi ona olan tələbdən çoxdur. Reytinq cədvəlində dəyərinə görə ABŞ dolları 13-cü, avro isə 7-ci yeri tutur. Azərbaycan manatının avro ilə bir onluğa düşməsi müsbət amil kimi qiymətləndirilir. Digər tərəfdən, bütün dünyada milli valyuta məzənnəsinin artması neft məhsulları istehsal edən ölkələrdə müşahidə olunur. Azərbaycan da neft ölkəsidir və istehsal olunan, dünya bazarına çıxarılan neft-qaz məhsullarının həcmi hər il artır. Nəticədə, ölkənin valyuta ehtiyatlarının məbləği sürətlə çoxalır.

Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da milli valyutanın dəyər qazanması təbii hal kimi qəbul olunur. Yeri gəlmişkən, milli valyutanın dəyəri əmək məhsuldarlığının artması hesabına da baş verir. Son illər qeyri-neft sektorunda dayanıqlı artım tempi müşahidə olunur.

Manatın dəyərinin qabaqlayıcı templər olmadan artması, eləcə də kəskin tərəddüdlərin qarşısını almaq üçün Milli Bank məzənnəni tənzimləyən tədbirlər həyata keçirir. Həmin tədbirlərdən biri Milli Bankın bu yaxınlarda məzənnə siyasətində dəyişiklik edərək, ABŞ dolları ilə yanaşı avrodan ibarət ikivalyutalı səbətin hədəflənməsinə keçməsidir. Nəticə kimi, məzənnə siyasətinin antiinflyasiya səmərəsinin artması əsas götürülmüşdür.

Əlavə edək ki, manatın dəyərinin yüksəlməsi ölkə əhalisinin milli valyutaya inamını artırmışdır. Bunun nəticəsidir ki, son bir ildə banklara qoyulan əmanətlərin məbləğini əsasən milli valyuta təşkil edir. Eyni zamanda, manata olan inamın artmasının nəticəsidir ki, əhalinin banka yatırımlarının da miqdarı xeyli dərəcədə artmışdır.

Reytinq cədvəlində birinci yeri Küveyt dinarı tutur. Bir il əvvəl Küveyt hökuməti milli valyutanı dollara dəyişməyi ləğv etmişdir. Bildirilir ki, Fars körfəzi ölkələri özlərinin beynəlxalq valyutasını buraxmağa hazırlaşırlar. Artıq 2010-cu ildə dollar və avroya rəqib valyutalar buraxılacağı gözlənilir. Mərkəzi və Qərbi Afrika dövlətləri də eyni ad altında buraxılan valyutadan istifadə edirlər.

İRAN DOLLARLA NEFT SÖVDƏLƏŞMƏLƏRİNİ DAYANDIRIB

İran dollarla neft sövdələşmələrini dayandırıb. İranın Yanacaq Nazirliyi bildirib ki, bundan sonra belə sövdələşmələr avro və yaxud da yapon pul vahidi ienlə aparılacaq.

Bir az əvvəl Venesuela da belə təkliflə çıxış etmişdi. Neft sövdələşmələrinin dollarla aparılmaması bu pul vahidindən asılılığı azaldır.

Dolların kəskin ucuzlaşması neft istehsalçılarını narahat edir. Çünki proses dollar ehtiyatlarını «yuyub» aparır.

İran prezidenti Mahmud Əhmədinejad bu günlərdə dolları «yararsız kağız parçası» adlandırıb.

«Los Anceles Tayms» məqaləsinə belə bir başlıq verib: «Türkiyə-Ermənistan barışığı? O qədər də yox, ancaq son incəliklər güclə sezilən ümidləri göstərir».

Qəzet bunu o vaxt yazır ki, aprelin 24-də bütün dünya ermənilər özlərinin soyqırımı iddialarının ildönümünü qeyd etdilər, türklər isə buna hər yerdə etiraz nümayişlərilə cavab verdilər.

rinci təbrik edənlərdən biri də Türkiyə prezidenti Abdulla Gül oldu. Yeni Ermənistan prezidenti isə vəd verdi ki, Türkiyə ilə münasibətləri normallaşdıracaq.

Elə soyqırımı mübahisəsinin özü də əməkdaşlığa imkan verir. Türkiyə təklif edir ki, Ermənistan tarixçiləri türkiyəli həmkarları ilə birlikdə 1915-ci ildə baş verənləri araşdırsınlar.

«Los Anceles Tayms» yazır ki, Türkiyə ilə əlaqələrin yaxşılaşması Ermənistana sərfəlidir.

«TUNELİN SONUNDA ZƏİF İŞARTI?»

Ermənistanın yeni prezidenti vəd verdi ki, Türkiyə ilə münasibətləri normallaşdıracaq

Qəzet etiraf edir ki, son illər soyqırımı mübahisəsi Fransadan Birləşmiş Ştatlar Konqresinə və hətta İsrailə keçib.

İsrail dilemma qarşısında qalıb - bu məsələni Knessetə, ölkə parlamentinə çıxarsın ya yox? Amerika kimi İsrail də hər hansı bir yerdə soyqırımı iddialarını rədd etməyi mənəvi cəhətdən düzgün saymır. Ancaq o biri tərəfdən İsrailin müsəlman dünyasında bir həqiqi tərəfdaşı var, o da Türkiyədir.

«Los Anceles Tayms» yazır ki, bu soyqırımı mübahisəsinə kim cəlb olunursa, istənilən halda uduzur.

Hərçənd burda bir udan tərəf də var, o da Rusiyadır. Soyqırımı məsələsi kəskinləşdikcə, Rusiya yavaş-yavaş Ermənistanın iqtisadiyyatını öz əlinə alır.

Qəzet yazır ki, soyqırımı mübahisəsinin yaxın vaxtlarda həll olunacağını heç kim gözləmir. Ancaq tunelin sonunda zəif işartı var.

İki ölkə arasında diplomatik əlaqələr olmasa da, Serj Sarkisyan seçkiləri udanda, onu bi- Çünki demokratik Türkiyə hökuməti Ermənistanın Qərbə birbaşa yolunu bərpa edə, Ermənistan iqtisadiyyatını düzəldə bilər. Qəzetin fikrincə, bu, Ermənistana Dağlıq Qarabağ problemini də həll etməyə kömək göstərər. Ermənistanla əlaqələrin düzəlməsi Türkiyəyə də sərfəlidir. Ankara Avropa Birliyi yolunda əngəllərdən birini aradan qaldırmış olar.

Xatırladaq ki, Türkiyə Ermənistanla sərhədləri təkcə Dağlıq Qarabağa görə bağlamayıb. Ankaranın şərtlərindən biri odur ki, Ermənistan Türkiyəyə ərazi iddialarından, yəni Qarsı istəməyindən əl çəksin. Türkiyə bildirir ki, sərhədi necə açа bilər ki, Ermənistan onun sərhədini tanımır? Ankara istəyir ki, Ermənistan soyqırımı iddialarını geri götürsün. Bunlar Türkiyənin rəsmi tələbləridir. Hökumətlər dəyişir, tələblər qalır.

Bəs Ermənistan tərəfdə nə düşünürlər? «Los Anceles Tayms»ın optimizmini bölüşürlərmi?

Elxan NƏSİBLİ

"İçərişəhərin ərazisində mütəmadi olaraq aparılan qazıntı işləri nəticəsində əldə olunmuş arxeoloji materialların zənginliyi nümayiş etdirir ki, İçərişəhər Azərbaycan xalqının tarixinin, o cümlədən onun milli dövlətçilik tarixinin bir çox açılmamış səhifələri haqqında, zəngin mənəvi və maddi sərvətlər xəzinəsi barədə dəyərli, mötəbər məlumatlar verən və tədqiqinə hələ də ehtiyac duyulan tükənməz mənbədir. Mütəxəssislər İçərişəhərin qədim yaşayış məskəni olması ilə yanaşı, onun ərazisində aparılan arxeoloji qazıntılar zamanı aşkar etdikləri mədəni təbəqələrin Azərbaycan xalqının tarixi və mədəniyyəti üçün xüsusi əhəmiyyətə malik olduğunu müəyyən etmişlər".

Heydər Əliyev

ABİDƏLƏR İKİNCİ ÖMRÜNÜ YAŞAYIR

İçərişəhər tarixin yadigarıdır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə İçərişəhərdə bərpa və yenidənqurma işləri aparılır. Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi Kamran İmanovla müsahibəni oxuculara təqdim edirik.

- Son illər İçərişəhərin qorunub saxlanması ilə bağlı dövlət səviyyəsində görülən işlər barədə oxucularımıza məlumat verməyinizi xahiş edirik.

- İçərişəhər tariximizin yadigarıdır. Zaman-zaman çox sınaqlardan, çətinliklərdən çıxıb. Ölkəmiz müstəqillik qazandıqdan sonra bu ünvanın dəyəri daha uca tutulur. Ulu öndər Heydər Əliyev 2003-cü il fevralın 17-də "Bakı şəhərində İçərişəhər Tarix-Memarlıq Qoruğunun mühafizəsi və bərpası ilə bağlı tədbirlər haqqında" sərəncam vermişdir. Həmin vaxtdan buraya qayğı, diqqət daha da artmışdır. Zəngin tarixə, mədəniyyətə malik Azərbaycan xalqının İçərişəhər, onun ərazisindəki Qız qalası, qala divarları, Şirvanşahlar sarayı kompleksi, məscidlər, karvansara, bazar meydanı və başqaları öz unikallığı ilə bəşər mədəniyyəti inciləri sırasında xüsusi yer tutur. Bir sözlə, daş yaddaşımız və tarix ensiklopediyamız olan İçərişəhər özü 600-dən çox abidədən ibarət olan şəhərsalma memarlıq abidəsidir.

«İçərişəhər" Tarix-Memarlıq Qoruğunun YUNESKO-nun "Dünya İrs Siyahısı"na daxil

edilməsi xalqımızın milli sərvəti olan İçərişəhərin və onun ərazisindəki maddi-mədəniyyət abidələrinin təkcə Azərbaycan tarixi, mədəniyyəti üçün yox, eləcə də dünya sivilizasiyası üçün necə böyük əhəmiyyətə malik olduğunu göstərir.

Son illər İçərişəhərin və onun ərazisindəki maddi-mədəniyyət abidələrinin qorunub saxlanmasına dövlət qayğısı göstərilir, kompleks tədbirlər həyata keçirilir. İçərişəhər ərazisinin dünya əhəmiyyətli memarlıq kompleksi kimi qorunub saxlanması, onun sosial-iqtisadi inkişafının təmin olunması üçün hüquqi əsaslar yaradılması məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin 2005-ci il 10 fevral tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi yaradılmış, 2005-ci il 28 fevral tarixli fərmanla "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu haqqında Əsasnamə təsdiq edilmişdir. 2006-cı ilin avqust ayında verilmiş daha bir sərəncamla müvafiq orqanlara Bakı şəhərindəki tarix-memarlıq abidələrinin təmiri, xarici görünüşünün bərpası, abadlaşdırılması və xüsusi işıqlandırılması üçün zəruri işlərin görülməsi, o cümlədən İçərişəhərin bərpası və qorunub saxlanması üzrə dövlət proqramının hazırlanması tapşırılmışdır. Nəhayət, ötən il may ayının 16-da Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Əsasnaməsi təsdiq edilmiş, onun strukturu və aparatının say həddi müəyyən edilmişdir və həmçinin 31 yanvar 2008-ci il fərmanına əsasən Qoruq ərazisində yerləşən abidələr və dövlət mülkiyyətində olan tikililər idarənin balansına verilərək, bir sıra qanunvericilik sənədlərində müvafiq dəyişmələr aparılmışdır. Beləliklə, Prezidentin diqqət və qayğısı sayəsində İçərişəhər ərazisindəki abidələrin, bütövlükdə, memarlıq-şəhərsalma kompleksinin lazımi səviyyədə qorunub saxlanması, gələcək nəsillərə çatdırılması üçün özündə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının funksiya və səlahiyyətlərini birləşdirən idarəetmə sistemi yaradılmışdır.

Bu işlərin davamı olaraq, hazırda Prezidentin fərman və sərəncamlarında İçərişəhərin tarixi ərazisinin memarlıq-arxeoloji, memorial abidələri, təbii landşaftı və sosial rejimi ilə birlikdə toxunulmazlığının təmin edilməsilə bağlı əksini tapmış normalar əsasında "İçərişəhərin statusu haqqında" qanun layihəsi üzərində iş aparılır. Bu qanun qəbul olunandan sonra İçərişəhərin etnoqrafik mühitinin, ənənəvi xalq sənətkarlığının və yerli tətbiqi-dekorativ incəsənətin saxlanmasına, qoruğun bir sıra iqtisadi və sosial məsələlərinin həllinə təkan verəcək. Eləcə də Azərbaycanda tarixən formalaşmış şəhərsalma elementlərinin dirçəldilməsinə kömək edəcəkdir.

Son illər İçərişəhərin idarə edilməsi sisteminin yaradılmasındakı böyük tərəqqi, "Vahid fəaliyyət menecment planı"nın formalaşdırılması, ölkə başçısı cənab İlham Əliyevin İçərişəhərin qorunub saxlanması üzrə fərman və sərəncamlarının icrası ilə bağlı "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən həyata keçirilən tədbirlər beynəlxalq qurumların da diqqətindən kənarda qalmamışdır. Burada görülən işlərlə tanış olan YUNESKO, İCOMOS və İCCROM-in nümayəndələri İçərişəhərin "Təhlükədə olan Ümumdünya İrsi" siyahısından çıxarılması məsələsinə baxılması barədə təklif hazırlamışlar və buna Ümumdünya İrsi Komitəsində 2008-ci ildə baxılması nəzərdə tutulur.

- "İçərişəhər" Qoruq İdarəsinin fəaliyyəti barədə nə deyə bilərsiniz?

- "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi 2007-ci ilin may ayından fəaliyyətə başlamışdır. Prezident tərəfindən onun qarşısında çox məsuliyyətli, çətin, amma şərəfli vəzifələr qoyulmuşdur. Bu vəzifələrin ən vacibləri İçərişəhərin min illər ərzində formalaşmış memarlıq-şəhərsalma və abidələr kompleksinin qorunub saxlanması, eyni zamanda, ərazidəki abidələrin bərpa-təmiri, şəhərin sosial-iqtisadi inkişafının təmin edilməsi və müasir tələbləri ödəyən beynəlxalq səviyyəli turist mərkəzinə çevrilməsi, bütövlükdə İçərişəhərdə vahid dövlət siyasətinin həyata keçirilməsinin təmin olunmasıdır.

Qoruq ərazisində uzun illər bir sıra problemlər, xüsusən, İçərişəhərin işıqlandırılmasında, təmizlik sisteminin təminatında, abadlıq-bərpa işlərinin təşkilində çatışmazlıqlar mövcud olmuşdur. Bununla əlaqədar, ölkə Prezidentinin tapşırığına əsasən, ilk növbədə, burada aparılan bütün qeyri-qanuni tikinti və inşa işləri dayandırılmış, tarix-memarlıq abidələrinin və tikililərin inventarlaşdırılması aparılmış, qanunsuz istifadəyə verilmiş dövlət mülkiyyətində olan abidələr geri qaytarılmışdır. İçərişəhərin memarlıq harmoniyasına, küçələrinin görünüşünə xələl gətirən, standartlara uyğun olmayan layihələr ləğv edilmişdir. Ərazidə müasir işıqlandırma sisteminin yaradılması, təmizlik sisteminin qurulması, aparılan təmir-bərpa işlərinin səmərəsinin artırılması istiqamətində xeyli işlər görülmüşdür.

Qısa vaxt ərzində qala divarları, Qoşa qala qapılarından başlayaraq Böyük qala, Qüllə, A.Zeynallı, S.Quliyev küçələri və Qız qalasının ətrafları yeni quraşdırılmış işıqlanma sistemləri ilə təmin olunmuş, dolanbac küçələrin işıqlandırılması üçün məşələ bənzər işıq dirəkləri quraşdırılmış, qoruq ərazisinin sanitar təmizliyi təmin edilmişdir. Qız qalasının qarşısında milli şəbəkə-naxışlı yeni körpü quraşdırılmış, qalanın ətrafındakı meydanda milli üslubda oturacaqlar düzəldilmiş, yanındakı bağda daş üzərində naxışlarla işlənmiş yeni bulaq kompleksi yaradılmış, ətraf daş fonarlarla işıqlandırılmış, başqa bərpa, abadlıq və təmir işləri aparılmışdır. A.Zeynallı küçəsində memarlıq abidələri ilə uyuşmayan qeyri-qanuni tikili sökülmüş, yerində İçərişəhər sakinlərinin və şəhərimizə gələn qonaqların mədəni istirahətləri üçün təşəbbüsümüzlə milli ornamentli və üslublu türk çadırı quraşdırılmışdır.

Buxara və Multani karvansaralarının ətrafında təmir-bərpa işləri aparılmış, MEA-nın İçərişəhərdə yerləşən Arxeologiya və Etnoqrafiya muzeyi binasının bərbad vəziyyətdə olan fasadı ilkin bərpa edilmişdir. "Hacı Banu" tarix-memarlıq abidəsində təmir-bərpa işlərinə başlanmış və orada "İçərişəhər" tarixi muzeyinin yaradılması nəzərdə tutulur. Abidənin ətrafında artıq milli şəbəkə üslubunda işıq sistemli məhəccərlər quraşdırılmışdır. Şirvanşahlar sarayı kompleksinin yaxınlığındakı bağda milli memarlıq üslubunda daş üzərində oyma naxışlı bulaq kompleksi, qala divarlarının pandus və ya-

rusları bərpa olunmaqla İçərişəhər ənənəsinə uyğun istirahət guşəsi yaradılır. Müasir işıqlandırma sistemi və etnomühitə uyğun keramik heykəltəraşlıq formaları quraşdırılır.

Qız qalası yaxınlığındakı 1964-cü ildə aşkar olunmuş Sıratağlı abidələrə aid müqəddəs sitayiş yerləri kompleksinin bərpası üçün işlər görülür. Xanəgah bərpa edilir. Bu kompleks bütün dünyaya örnək olan Azərbaycan tolerantlığının bariz nümunəsidir. Burada açıq səma altında muzey layihəsi həyata keçirilir.

İçərişəhərdə abadlıq, təmir və bərpa işləri həvəslə, uğurla davam etdirilir. Böyük qala, 6-cı Böyük qala döngəsi, S.Quliyev küçəsi və 2-ci Qüllə döngəsindəki binaların fasad hissələrində təmir-bərpa işləri görülür. Kiçik qala küçəsindəki bina və tikililərin fasadlarında bərpa işləri ilə yanaşı, onların tarixi görkəminin özünə qaytarılması ilə bağlı layihə həyata keçirilir. Asfalt örtüyün daşla əvəzlənməsi, işıqlandırma sisteminin müasir dizaynda, qədimliyə uyğun şəkildə yenidən qurulması da nəzərdə tutulur. S.Quliyev küçəsində əsaslı bərpa işləri artıq başa çatdırılmış, köhnə kommunikasiya qurğuları yeniləri, yol örtüyü üzlük daşla əvəzlənmiş, Ə.Əliyev küçəsinə çıxış hissəsindəki pilləkən daşla yenidən bərpa olunmuşdur.

Ümumiyyətlə, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin fəaliyyəti ərzində İçərişəhərdə 50-dən artıq yaşayış binasında təmir-bərpa işləri aparılmış, Qız qalası yaxınlığındakı meydanda 685 kvadratmetr asfalt örtük kub formalı daşlarla əvəzlənmiş, 985 kvadratmetr sahədə asfalt örtüyü təmir edilmiş, 200-ə yaxın ağac əkilmişdir. Küçələrin təmizliyində istifadə üçün xaricdə istehsal olunmuş 3 ədəd xüsusi təyinatlı maşın, başqa texnika, avadanlıqlar alınmışdır.

İçərişəhərdə nəqliyyatın hərəkəti ilə bağlı yaranmış problemin tənzimlənməsi məqsədilə elektron-müşahidə sistemi yaradılmışdır. Ərazidə idarənin informasiya mərkəzindən idarə və videomüşahidə olunan iki elektron qapı quraşdırılmış, burada fəaliyyət göstərən təşkilat və firmaların siyahıları tərtib edilmiş, sakinlərə və firmalara məxsus nəqliyyat vasitələrinin əraziyə maneəsiz daxili üçün elektron kartlar verilmiş, kartları olmayan nəqliyyat vasitələrinin İçərişəhərə girişi qadağan edilmişdir.



- İçərişəhər qədim tariximizin bir yadigarı olmaqla xalqımızın yüksək mədəniyyətindən xəbər verir və təbii ki, bu cür unikal memarlıq-şəhərsalma kompleksinin təbliği və onun müasir turizm mərkəzinə çevrilməsi də vacib məsələlərdəndir. Bu istiqamətdə idarənin gördüyü işlər barədə məlumat oxucularımız üçün maraqlı olardı.

- Qoruq idarəsinin qarşısında duran ən vacib vəzifələrdən biri də İçərişəhərin müasir tələblərə cavab verən beynəlxalq turizm mərkəzinə çevrilməsi istiqamətində görüləcək işlərlə əlaqədardır. Buraya ərazidə aparılan bərpa və abadlıq işləri ilə yanaşı, müasir infrastrukturun yaradılması, turist marşrutlarının müəyyən edilməsi, geniş tərtibat işlərinin aparılması, tarix-memarlıq abidələrini əks etdirən videoçarxların, kitabçaların, təqvimlərin, açıqcaların hazırlanması da daxildir. Bu-

nunla bağlı artıq müvafiq işlər görülür. İçərişəhərin gerbinin hazırlanması, memarlıq abidələri ilə tanış olmağa imkan verən sərginin təşkili və şəhərin keramika üzərində elektron formada hazırlanan xəritəsi də bu məqsədə xidmət edir. 85 tarixi memarlıq abidəsinin ünvanlarının göstərildiyi bu xəritəyə əcnəbilər böyük maraq göstərirlər.

Qoruqda mədəni mərkəzin yaradılması, xüsusi elm-istehsalat bərpa emalatxanasının açılması, nadir memarlıq incilərinin bərpası, arxeoloji qazıntılar nəticəsində aşkara çıxarılmış maddi-mədəniyyət abidə komplekslərinin konservasiya olunması istiqamətlərində də işlər davam etdirilir. Eyni zamanda, İçərişəhər qoruğu ərazisində son vaxtlar elmi-arxeoloji monitorinq və kəşfiyyat işləri aparılır. Aşkar edilmiş maddi-mədəniyyət abidələrinin elmi-tarixi cəhətdən öyrənilməsi təşkil edilmişdir. Qoruğun sifarişi ilə Bakının qədim dövrlərinə aid kitablar hazırlanır.

- İçərişəhərin qorunub saxlanması və inkişafı üzrə "Master plan"ın hazırlanması barədə xəbər verilmişdir. Bununla bağlı əlavə məlumat verməyinizi xahiş edirik.

- Görülən işlər xalqımızın maddi-mədəniyyət nümunələrinin qorunub saxlanılması, milli-mənəvi dəyərlərimizin təbliğində böyük xidmətləri olan YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın kömək və dəstəyinin nəticəsidir.

Mehriban xanımın təşəbbüsü, dəstəyi, tanınmış milli və beynəlxalq mütəxəssislərin iştirakı ilə İçərişəhərin ən mühüm sənədi olan "Master-plan"ı hazırlanır, İçərişəhərin idarə olunmasına dair "Menecment plan" isə artıq hazırlanmış və tətbiq edilir.

Başlıca məqsəd ondan ibarətdir ki, şəhərsalma mədəniyyətimizi mərhələlərlə özündə əks etdirən İçərişəhər memarlığımızın "daş yaddaşı" kimi mühafizə edilməli, bir tərəfdən canlı şəhər kimi yaşamalı, digər tərəfdən, unikal maddi-mədəniyyət abidəsi kimi gələcək nəsillərə yadigar qalmalıdır. Məlumdur ki, yaxın keçmişdə bu ünvana qarşı çox amansızlıqlar olub. Müstəqilliyimizin vacib şərtlərindən biri də tarixi abidələri, milli-mənəvi dəyərləri, ulularımızdan qalan yadigarları qorumaqdır. Unutmamalıyıq ki, İçərişəhər memarlıq abidələri tarixin qovğalarından çıxıb. Onların qədrini bilmək hər birimizin vətəndaşlıq borcudur.

Söhbəti yazdı:
T. AĞAOĞLU





An Alternative Method of Assessing the Young Learner: Portfolios

Importance of Assessment

The assessment of young EFL learners* is a critical component of high-quality educational programs. It is an important tool in understanding and supporting student's learning and is also essential to evaluate program effectiveness. This article discusses the portfolio as an alternative form of assessment which is in congruence with communicative, humanistic and learner-centered programs for young EFL/ESL learners that treats assessment as an integral part of teaching.

Definitions of Terms

To thoroughly appreciate the role of assessment in educational programs it is important to understand some of the terminology frequently associated with evaluating students and programs. To begin with it is necessary to distinguish between the terms testing and assessment. According to Shepard (1994) testing and assessing technically have the same meaning; however, the fact that these two terms have grown up in common parlance is of symbolic importance. Testing is one form of assessment. It usually involves a series of direct requests to children to perform, within a set period of time, specific tasks designed and administered by adults, with predetermined correct answers. By contrast, alternative forms of assessment may be completed either by adults or children, are more open-ended, and often look at performance over an extended period of time. Examples include structured observations, portfolio analyses of individual and collaborative work, and teacher and parent ratings of children's behavior.

Assessment has various purposes. Formative is used to assess student progress and summative is used to assess whether instructional goals have been achieved. It should be noted that tests designed by teachers and individual schools are not standardized and therefore fair comparisons on the performance of test takers between and among groups cannot be made and if they are made they are invalid.

** Young learners refer to the ages of 5 to 10 years of age.*

Fallacies of Testing

Traditional testing has many fallacies and "young learners are notoriously poor test takers.... the younger the child being evaluated, assessed, or tested, the more errors are made..[and] the greater the risk of assigning false labels to them" (Katz 1997:1). Traditional classroom testing procedures can cause children a great deal of anxiety that will affect their attitudes toward language learning as well as their future achievements.Therefore, children need to be tested in environments where they feel comfortable and with adults they know and feel relaxed with. Furthermore, tests provide only a numerical description of the abilities of the learner. Instead of working frantically to get children "ready to prove themselves on an upcoming test why not make "assessment an integral part of the curriculum and instructional practices?

Limitations of Report Cards and Grades

Along with the issue of testing, report cards and grades have many limitations. According to Katz (1996), an internationally recognized authority in programs for young children:

Report cards with letter grades or achievement scores are not appropriate for children at and below the third grade. First, before third grade, the differences in developmental timetables and other factors that contribute to performance are still too unstable, malleable, and varied to achieve reliability. By third grade, however, children's abilities and aptitudes are likely to have stabilized and can be assessed with at least minimal reliability. Second, there is little evidence that grades or scores listed on the report cards of young children contribute positively to those most in need of improvement. Third, while teachers need to know how well a young child is progressing on significant skills and knowledge, and to evaluate such progress, little is known about how parents use such information.

These remarks by Katz should be taken seriously by all of those involved in "evaluating children's

performance. Finding alternative means to capture a learner's development should be a priority of all programs. Assessment procedures such as the language portfolio, provides a rich source of information regarding the language learner's abilities, as well as social and emotional development. The language portfolio allows assessment to become an effective diagnostic tool that provides feedback to the learner, teacher and parents.

What are Portfolios?

The concept of portfolio was borrowed from the field of fine arts where portfolios are used to display the best samples of an artist's work (Brown 1998). The purpose of a portfolio in the context of language teaching is to demonstrate the extent of a student's communicative competence in the target language through samples of oral and written work (Wolf 1989). Student portfolios may be defined as "the use of records of a student's work over time and in a variety of modes to show the depth, breadth, and development of the student's abilities" (Pierce and O'Malley 1992:2)

What are the Contents of a Language Portfolio

Alternative assessment approaches such as the *language portfolio* are grounded in the perspective that assessment is an ongoing process of collecting information on students' abilities, difficulties and progress. Much of the content collected depends on the age of the language learner; however, examples include observation of pupils, records of learners' performance as they are engaged in activities, and samples of their work. Following are some suggestions to use in a language portfolio:

- *Checklists*
- *Short questionnaires which can indicate what pupils like and don't like; what is easy and what they find difficult*
- *Oral interviews*
- *Observations of requests for simple directions to be carried out or students may be asked to produce drawings, models, graphs, and charts.*
- *Observations or audio recordings of learners' conversations (pictures and storybooks that are used in the classroom can serve as stimuli for questions, answers and communication).*
- *Review of pupils' workbooks and tasks that they have completed provide ongoing evidence of learning and achievement.*
- *Projects or products of the learner's work.*
- *Anecdotal observations and records.*
- *Formal assessments such as individually administered or class tests*

Conclusion

The author recognizes that testing and evaluation in the country of Azerbaijan is a complex and controversial issue. However, considering the impact that evaluation has on the lives of students, teachers and administrators, the issue needs to be reviewed and a conversation needs to begin. When the assessment practices of learners become an integral part of the curriculum, and the work and achievements of learners are documented, providing a fair, accurate and thorough method for recording and reporting the language development of learners; then the experiences of learning are certain to be more enjoyable and successful.

Submitted by:
Kathryn NOORI

References

Brown, J. D. and T. Hudson. 1998. *The alternatives in language assessment*. TESOL Quarterly, 32, 4, pp. 653-675.

Katz, L.G. (1997). A Developmental Approach to Assessment of Young Children. ERIC Digest. Urbana, IL: ERIC Clearinghouse on Elementary and Early Childhood Education. ED 407 172.

Katz, L.G., & Chard, Sylvia. C. (1996). The Contribution of Documentation to the Quality of Early Childhood Education. ERIC Digest. Urbana, IL: ERIC Clearinghouse on Elementary and Early Childhood Education. ED 393 608.

Pierce, L. V. and J. M. O'Malley. 1992. *Performance and portfolio assessment for language minority students*. Washington, DC: National Clearinghouse for Bilingual Education.

Shepard, L.A. (1994). The challenges of assessing young children appropriately. *PHI Delta Kappan*, 76(3), 206-212. EJ 492 843.

Wolf, D. P. 1989., D. P. 1989. Portfolio assessment: Sampling student work. Educational Leadership, 46, pp. 35-39.

LİRİK RAKURSDAN

Türklərin qalası, sevginin yadigarı....



Deyilənlərə görə, dünyada 39 Qız Qalası var. Bunların da 15-ə qədəri Azərbaycanımızdadır.

Gözəl İstanbulun simvolu olan Kız Kulesi və ya bizim dilimizcə desək, Qız Qalası İstanbul boğazının Mərmərə dənizinə yaxın bir ərazisində, kiçik, lakin tarixən sirli bir ada üzərində inşa edilib. Kız Kulesi İstanbulun gözəlliyinə gözəllik qatan başlıca memarlıq abidələrindən biridir.

Haqqında çoxlu əfsanələr söylənilən, möhtəşəm dəniz mənzərəli bu qala Üsküdarda Bizans dövründən qalan tək yadigardır. Gözəl Qara dənizin Mərmərə dənizi ilə qovuşduğu yerdə ucalan Kız Kulesinə avropalı tarixçilər "Leander qalası" da deyirlər.

Bugünkü qalanın təməl daşları sultan Fateh dövründə qoyulmuşdur. Yunan dövründə bir məzarın yeri olan bu ada sonralar Bizans dövründə gömrük stansiyası, Osmanlı dövründə mühafizə qalası, sürgün məntəqəsi və həmçinin müxtəlif dövrlərdə başqa məqsədlərə görə istifadə edilmişdir. Ancaq yarandığı gündən Kız Kulesi bir dəyərli önəmini bu günə kimi itirməyib; bu, gecələr geçib gedən gəmilərə möhtəşəm fanarı ilə yol göstərmək və sevənlərə səhər-axşam tarixi məhəbbətindən pay verməkdir.

Elə söz məhəbbətdən düşmüşkən, keçək bizim şirin, doğma şəhərimiz Bakıya. Bilənlər bilir ki, məhəbbətin, dostluğun, qəhrəmanlığın yeri bu əziz küləklər şəhəri Bakımızdır. Bakı deyincə, həmin an gözümüzün önündə nazlı Qız Qalası canlanır.

İçərişəhərdə yerləşən Qız Qalası Azərbaycanımızın XII əsrə aid olan ən dəyərli memarlıq incilərindən biridir. Qız Qalası memarlıq formasına görə Şərqdə fərqli və yeganədir. Möhtəşəm abidə memar Məsud Davud oğlu tərəfindən işlənmişdir. Hündürlüyü 29,5, diametri isə 16,5 metr olan Qız Qalası silindr quruluşludur. Maraqlıdır ki, bu tikilidən nə məqsədlə istifadə olunduğu hələ bu günə qədər tarixçilər üçün tam aydın deyildir.

Bakı və İstanbul qardaş şəhərlərdir, hər birimizin xoş, mənalı, sevimli anları doğulduğumuz bu şəhərlərdə yaşanmışdır. Mən tarixçiləri bilmirəm, amma həmişə bu qalaları görərkən yadıma sadəcə sevgi düşür. Yalnız tarixi sevgi ilə və ya məhəbbətlə inşa olunan bu tikililər bele möhtəşəm ola bilər. Həqiqətən, bu qalalar türk qızları kimi çox cəsur, mərd, ismətli və gözəldirlər. Biri Xəzərə, biri Qara dənizə nazlanan bu sevimli abidələr tarixin cəsur, qorxmaz sirdaşlarıdır. Ancaq bu qədər deməkdənsə, bir görmək nəyə desən dəyər; amma yanınızda ən sevdiyiniz adamı unutmayın, çünki bu zaman qalaların hər ikisi sizə sevgidən danışacaq, inanmırsınızsa, bir baxın...

Günel MUSTAFAYEVA

SATİRİK QƏLƏMLƏ

ADSIZ FİRMALARDA "YÜKSƏK GƏLİRLİ" İŞ

Uzun müddət işsizlikdən əziyyət çəkən, ailəsinin çörək, hətta özünün siqaret pulunu belə qazana bilməyən adamı təsəvvürünüzdə canlandırmağa çalışın. Yəqin, Azərbaycanda belə bir adamı təsəvvür etmək o qədər də çətin deyil; əgər xoşbəxtlikdən özünüz işsiz deyilsinizsə, belə bir problemi olan tanışımız olacaq. Təsəvvür edin ki, həmin adama metropolitenin stansiyalarından birində üzərində "xarici holdinq"in "ali və orta ixtisas təhsili olan, qabiliyyətli və enerjili adamları", tələbələr də daxil olmaqla "yüksək maaşlı", yaxud "gəlirli işə" dəvət etdiyini bildirən kağız parçası verilir. Onun necə sevinib, həyəcanlanacağına, yəqin, heç biriniz şübhə etmir. Bəli, bu hisslər bu sətirlərin müəllifinə də yad deyil. Adam bir anlıq işsizliyin səbəb olduğu bütün çətinlikləri, qüssə və kədəri, hətta reallıq hissini belə unudaraq, özünü xoşbəxt hiss edir. Sanki Azərbaycanda yox, inkişaf etmiş Qərb ölkələrindən birində yaşayırsan və sən işi yox, "iş" özü gəlib səni tapır.

Həmin kağızda göstərilən telefon nömrəsinə zəng edərək, çox gözəl və mələhətli səsi olan xanımdan (əksərən dəstəyi götürən qadın olur) həmin "firmanın ofisinin" yerləşdiyi ünvanı öyrənərək birtəhər, güc-bəla ilə axtarıb oranı tapırsan. Məlum olur ki, həmin "ofis" hansısa köhnə yaşayış binasının birinci mərtəbəsində yerləşən bir, yaxud iki otaqdan ibarətdir. Bu zaman iş üçün gələn yeganə şəxs olmadığını, burada səndən başqa ən azı beş-altı adamın gözlədiyini də "aşkar edirsən". Həmin andan etibarən bayaq qeyd etdiyim, üzərində iş elanı olan kağızı alarkən keçirdiyin xoşbəxtlik və inam hissini tədricən məyusluq və şübhə hissi əvəz etməyə başlayır. Bundan sonra bu suallar səni narahat etməyə başlayır: Əcəba, bu "xarici holdinq"in adı nədir ? Onun "ofisi" niyə belə balacadır? Sizə hansı iş təklif olunacaq? Nə qədər maaş veriləcək və s. Fikrinizi bu kimi suallarla məşğul edərkən növbəniz çatır və sizi içəri dəvət edirlər. İçəridə verilən anketi doldurduqdan sonra sizə "bizə məhz sizin kimi adamlar lazımdır", "biz sizinlə işləməyə şad olarıq" və s. buna bənzər gəlişi gözəl və şirnikləndirici sözlər deyirlər. Ən nəhayət isə, sizdən qiyməti on manat olan "ərizə forması"nı doldurmağın tələb olunduğunu bildirirlər. Bayaq özünə verdiyin sualları onlara verdikdə isə heç bir konkret cavab ala bilmirsən. Sizin bütün suallarınıza yalnız "ərizə formasını" doldurduqdan sonra cavab veriləcəyini bildirirlər. Yalnız bundan sonra məsələnin on manatda olduğu sizə aydınlaşmağa başlayır. Necə deyərlər, ayının min oyunu bir armudun üstündə olur. Reallıq hissini itirdiyinə və xam xəyala qapıldığına görə özünü söyə-söyə əli ətəyindən uzun qayıdırsan evə. Yox əgər Mingəçevirdən özünə iş tapmaq ümidiylə Bakıya gələn və bu tip "iş elan"ı alan Rauf bəy kimi on manatı verib ərizə formasını doldursanız, onda sizə "sizinlə tezliklə əlaqə saxlayacaqlarını" bildirəcəklər. Rauf bəy altı aydır ki, onların onunla nə zaman əlaqə saxlayacaqlarını gözləyir. Əlbəttə, Rauf bəyin Regionların sosial-iqtisadi inkişafıyla bağlı dövlət proqramından xəbəri olsaydı, basa-basa Bakıya gəlməzdi və on manatı da cibində qalardı.

Onlar çox nadir hallarda "ərizə formasını" dolduran adamlara zəng edərək, yenidən "ofisə" çağırırlar. Həmin adamlara bir neçə həftədən bir neçə ayadək davam edən kurslar keçilir. Bu kurslar vasitəsilə onlar özlərinə münasib olan "firmanın" işinə yararlı ola biləcək bir-iki adamı "iş"ə qəbul edirlər. Yeni "iş"ə qəbul olunan adamlar isə öz növbəsində "firmaya" yeni-yeni müştərilər, daha doğrusu, onların on manatını cəlb edirlər. Bir sözlə, bu "firmalar" hörmətli həmkarım Sona xanımın qeyd etdiyi kimi, Multi level (Çoxmərhələli), yaxud Network (Şəbəkəli) marketinq qurumları deyil, həmin qurumların imitasiyası və Azərbaycan versiyası olan Piramida yaxud Ponzi planıdırlar. Onlar hər hansı bir məhsulun və ya xidmətin şəbəkəli satışını deyil, insanların bir-birini şəbəkəli surətdə, piramida şəklində aldatmasını təşkil edirlər. Son olaraq sizdən rica edirəm: reallıq hissini və harada yaşadığınızı unutmayın. Bura Azərbaycandır və burada fəaliyyət göstərən "xarici holdinqlər" də əsl azərbaycansayağı işləyirlər.

Ayaz QALIB

Əlirza BALAYEV

MÜƏMMA

Məlum olduğu kimi, islam dinində alkoqollu içkilər qəti surətdə haram edilmişdir. Ancaq bu işdə dinimiz tədricən tərgitmə qaydasını, yəni yavaş-yavaş pis vərdişin aradan qaldırılması üsulunu seçmişdir. Bu mövzuda tədricən gələn ayələrlə içkinin mənfilikləri başa salınmış, ən nəhayətdə isə qəti surətdə haram edilmişdir. Əl-Bəqərə surəsinin 219-cu ayəsində Allah-Təala məalən buyurmuşdur: "(Ya Rəsulum!) Səndən içki və qumar (meysir) haqqında sual edənlərə söylə: "Onlarda həm böyük günah, həm də insanlar üçün mənfəət (dünya mənfəəti) vardır. Lakin günahları mənfəətlərindən daha böyükdür"! Bu mövzuda ən axırda nazil olan ayələr "Maidə" surəsinin 90 və 91-ci ayələridir. Bu son ayələr ilə alkoqollu içkilər qəti surətdə haram edilmişdir: "Ey iman gətirənlər! Şərab da (içki də), qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız! Şübhəsiz ki, Şeytan içki və qumarla aranıza ədavət, kin salmaq və sizi Allahı zikr etməkdən, namaz qılmaqdan ayırmaq (yayındırmaq) istər. Artıq bu işə son qoyacaqsınızmı?"

Yenə də məlum olduğu kimi, bu barədə Peyğəmbərimizin (s. ə. v.) bir çox hədisləri vardır. Ən mötəbər hədis kitablarında olan bu hədisi-şəriflərdən bir neçəsini də oxuculara xatırladıram: "Hər sərxoşluq verən şey şərabdır (içkidir) və sərxoşluq verən hər şey haramdır" (Buxari və Müslim); "Bir şeyin çox miqdarda qəbul olunması insana sərxoşluq verirsə, o zaman onun azı da haramdır. Hər cür sərxoşedici haramdır. Ovuc dolusu sərxoşluq verənin bir damlası da haramdır." (Əbu Davud, Tirmizi) və s.

Şərabdan hətta müalicə vasitəsi kimi istifadə olunması da qəti yasaq edilmişdir. Peyğəmbərimizin (s. ə. v.) bu barədə də hədisləri məlumdur: *"İçki dərman deyildir. Əksinə, mərəzdir (xəstəlik törədicidir)"* (Əbu Davud, Tirmizi, Müslim); *"Rəbbim ümmətimə haram etdiyi şeylərdə (ümmətimin) şəfasını verməz"* (Tacül-üsul, 3-cü cild, səh. 142) və s.

Həzrəti Əlinin "Nəhcül-bəlağə" əsərində, digər islam müqəddəslərinin və övliyaların kəlamlarında da, təbii olaraq, Qurandan gələn və hədisi-şəriflərdə təsbit edilən bu ehkam daim izah və təbliğ olunmuşdur. Yəni, islamda şərabın qəti

qadağan edildiyinə zərrə qədər şübhəyə də əsas yoxdur.

Bu məlum həqiqətləri niyə bir daha oxuculara xatırlatdım? Ona görə ki, dinimizin yuxarıda göstərilən ehkamları ilə ziddiyyət təşkil edən, heç cür izah oluna bilinməyən məqamlarla rastlaşırıq. Orta əsrlərin tarix kitablarında müsəlman ölkələrində şahların, hökmdarların saraylarında şərab məclislərindən bəhs edən çoxlu səhifələr vardır. Hətta xəlifələrin ("xəlifə" sözünün lüğətdə mənası belə göstərilmişdir: "islamiyyətdə: peyğəmbərin yerində oturan şəxs") şərab məclislərini təsvir edən mənbələr mövcuddur. Abbasilər sülaləsinə mənsub xəlifə Mötəsimə aid bir misal: *"Bir gün Mötəsim şərab məclisində oturmuşdu. Mötəsim məclisdən durub o biri hücrəyə getdi. Bir az orada qaldıqdan sonra dişarı çıxıb şərab məclisinə gəldi, sonra hamama gedib, üç dəfə qüsl etdi, dişarı çıxıb canamaz istədi, iki rükət namaz qıldı, sonra yenə şərab məclisinə gəldi."* (Əbu Əli Həsən ibn Əli Xacə Nizamülmülk. Siyasətnamə. Bakı, "Elm", nəşriyyatı, 1987, səh.182).

Düşünə bilərik ki, şərab istemal edən şahlar, hökmdarlar, hətta xəlifələr din yolundan azaraq, küfr əməllərlə məşğul olan şəxslər olmuşlar. Ancaq dərhal özümüzə sual veririk: belə olan halda, gizli saxlanılmalı olan bu küfr əməllər haqqında niyə bol-bol yazılmışdır? Lakin müəmma bununla bitmir. Nəinki bütün Şərq-müsəlman aləmində, bütün dünyada tanınan islam mütəfəkkirlərinin öz əsərlərinə şərab istemal etmək qaydaları haqqında fəsillər daxil etmələrini necə izah etmək olar? Elə Nizamülmülkün və Tusinin kitablarına nəzər salaq.

Nizamülmülkün məşhur "Siyasətnamə" əsərində on beşinci fəsil belə adlanır: *"Sərxoşluqda və ayıqlıqda əmrlərin verilməsində ehtiyatlı olmaq haqqında"* (göstərilən əsəri, səh. 89). Belə məlum olur ki, hökmdar nəinki şərab istemal edə bilər, hətta sərxoşluqda əmr də verə bilər və Nizamülmülkün tövsiyəsinə görə bu zaman "ehtiyatlı olmalıdır". On altıncı fəsildə müəllif şərabxananın xüsusi vəkilə etibar edilməsi lüzumundan bəhs edir (göstərilən əsəri, səh. 89).

İyirmi doqquzuncu fəsil *"Şərab məclisi düzəltmək qaydaları və onun şərtləri haqqında"* adlanır. Burada Nizamülmülk hətta şahların öz təbəələrini də şərabla təmin etmək zərurətini əsaslandırır: *"Şərab həmişə şahların sarayından evlərə aparılmalıdır, evlərdən saray məclislərinə gətirilməməlidir, çünki sultan dünyanın ağası, dünya adamları isə onun ailəsi və qulu hesab edilər. Yaxşı olmaz ki, çörək yeyib şərab içdiyin bir evə öz evindən çörək və şərab aparasan... Saray şərabdarı mənə yaxşı şərab vermir – deyə öz şərabını gətirirsə, şərabdara qulaqburması vermək lazımdır, ona demək lazımdır: "Yaxşı, pis şərabların hamısı sənin ixtiyarındadır, nə üçün pisini verirsən?" Onda bu bəhanə ortalıqdan qalxar"* (göstərilən əsəri, səh. 110-111).

Tusinin "Əxlaqi-Nasiri" əsərində ikinci məqalənin dördüncü – "Övlad sax-

lamaq və tərbiyə etmək qaydaları haqqında" adlanan fəslində belə tövsiyə olunur: uşaq *"həddi-büluğa çatmamış şərab, məstedici içkilər ona qadağan edilməlidir"* (Xacə Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Bakı, "Elm" nəşriyyatı, 1989, səh. 158). Deməli, uşaq həddi-büluğa çatandan sonra şərab, məstedici içkilər ona qadağan edilmir. Həmin fəsildə müəllif xüsusi *"Şərab içmək qaydaları"* adlı bölmə vermişdir. Orada yazır: *"Heç yerdə, heç vaxt sərxoş olana qədər içməməlidir, dində və dünyada heç bir fəzilət ağıldan və ayıqlıqdan gözəl ola bilmədiyi kimi, heç bir rəzilət də ağlını itirmək və sərxoşluq etməkdən iyrənc ola bilməz... Şərab içməyi yaxşı bacarırsa, özü çox hərislik göstərməməli, camaatı da içməyə məcbur etməməlidir"* (göstərilən əsəri, səh. 165).

Həm Nizamülmülkün, həm də Tusinin şərab istemalı haqqındakı "konsepsiya"larının islam dininə tam zidd olduğunu izah etməyə ehtiyac yoxdur. Yenə də müəmma ondadır ki, bu "konsepsiya"lar müsəlman aləmində necə meydana çıxa bilib, iki məşhur əsər vasitəsilə yayılmışdır?

Nizamülmülk (1019-92) Alp Arslanın (1063-72) və varisi Məlik şahın (1072-92) dövründə Səlcuqilər dövlətinin vəziri idi. Həmin dövr bu dövlətin tərəqqisi ilə səciyyələnirdi. Səlcuqlar islamı X əsrdə qəbul etmişdilər. Nizamülmülk özü islamın böyük təəssübkeşi kimi yanlış hesab etdiyi təriqət və məzhəb tərəfdarlarını amansızcasına təqib edirdi. Quran ayələrindən, Peyğəmbərin (s.ə.v.) hədislərindən necə xəbərsiz ola bilərdilər?

Tusi (1201-1274) dövrünün elə görkəmli şəxsiyyəti idi ki, məzar daşında "Elm ölkəsinin şahı, dövr anası belə oğul hələ doğmamışdır" yazılmışdı. Əxlaqi-Nasiri"nin müqəddiməsində Rəhim Sultanovun yazdığı kimi, "Tusinin əsərləri içərisində "Əxlaqi-Nasiri" məzmununun ictimai, iqtisadi, siyasi, əxlaqi, fəlsəfi və tərbiyəvi səciyyəsi baxımından xüsusi əhəmiyyətə malikdir. Bunu qeyd etmək kifayətdir ki, yeddi yüz ildən artıq bir müddət ərzində bu kitab Orta və Yaxın Şərq məktəblərində əxlaq dərsliyi kimi şöhrət tapmışdır, hələ indi də bəzi orta məktəb proqramlarında bu məqsəd üçün ona müəyyən yer verilir" (göstərilən əsər, səh.12).

"Uşağa şərabı həddi-büluğa çatandan sonra vermək olar", "sərxoş olmayana qədər şərab içmək olar" və s. müddəaları özündə əks etdirən kitabdan necə olub ki yeddi əsr ərzində müsəlman ölkələrində əxlaq dərsliyi kimi istifadə olunub?

Müsəlman cəmiyyətlərində həmişə güclü nüfuza və hakimiyyətə malik olan, şəriət ehkamları pozulduğu təqdirdə ölüm cəzası təyin etməyə qədər səlahiyyət sahibi olan dini təsisatların yuxarıda göstərilən faktlara liberal münasibətinə islam hüququ nöqteyi-nəzərindən necə haqq qazandırmaq olar? Bu sual, həmçinin yuxarıda qoyulmuş müvafiq suallar öz cavabını gözləyir...

HƏYAT LÖVHƏLƏRİ

"KƏL MÜRSƏL"

- Fatma bacı, eşitdim Mürsəl kişi bir az nasazlayıb, gəldim baş çəkim.

Boynunun ardı boyunduruqdan sürtülüb qat bağlamış kəl boynuna oxşadığından el arasında ona "Kəl Mürsəl" də deyirdilər.

- Xoş gəlmisən, ay Mehdi qardaş, Mürsəl yaman soyuqlayıb, banka qoymuşam, keç yanına, indi bankanı çəkəcəm.

- Ay Fatma bacı, o nə cür bankadır o boyda, olmaya kiloluq bankadır?

- Mehdi qardaş, kiloluq banka ona təsir eləmir, sərniclə bankalayıram – deyib, "banka"nı çəkir.

Mehdi kişi gözləri ilə bunları görməsəydi, heç vaxt inanmazdı. "Kəl Mürsəl" ləqəbinin düzgün qoyulduğuna o, indi inanmışdı.

RƏHMƏT, RƏHMƏT

Sovet hakimiyyəti nə qədər çalışsa da, Novruz bayramı və Aşura gününü qeyd etməyi insanlara qadağan eləyə bilməmişdi. Bu mərasimlər kənd yerlərində daha mütəşəkkil keçirilirdi. Bu dəfə də "Aşura günü"nə yüzlərlə kənd əhalisi qatılmışdı. Mərasimi kəndin iki tanınmış mollası aparırdı. Bu dəhşətli faciənin ayrı-ayrı səhnələrini təşkil edən bədii hissədən sonra iştirakçılar mollalara yaxınlaşır, yasin oxutdururdular. Mollalardan biri qayda-qanunla yasin oxuyur, sonra nəziri qəbul edirdi. Bu da vaxt aparırdı, növbə yaradırdı. O biri molla isə "rəhmət, rəhmət" deyib nəziri alırdı, bununla da işini bitmiş hesab edirdi. Yasin oxuyan molla görür ki, camaatın hövsələsi çatmır, hamı axışır o biri mollanın yanına. Odur ki, o da o biri molla kimi nəziri alıb "rəhmət, rəhmət" deməklə kifayətlənməli olur.

ƏLƏSGƏR MÜƏLLİMİN MƏKTƏBİ

Ağcabədidə novator müəllimlər həmişə olub. Camal müəllimin vaxtında şagirdlər "riyaziyyat xəstəliyi"nə tutulmuşdular. Həsənbala müəllimin gəlməyi ilə hamı fizik olmaq həvəsində idi. Məcid müəllimin, Sənubər müəllimin gəlişi istiqaməti kimya-biologiyaya yönəltmişdi.

Ağcabədidə məşhur məktəb direktorları da olub. Hörmət əlaməti olaraq məktəb onların adı ilə adlanıb: "Ələsgər müəllimin məktəbi", "Abdulla müəllimin məktəbi" və s.

Müəllimlərin, şagirdlərin pambıq yığımında iştirak etdikləri vaxtlarda Ələsgər müəllim müəllimləri kabinetinə yığaraq, onları pambıq yığımının təşkili məsələsinə məsuliyyətsizlikdə qınayır və müəllimlərin gözü qarşısında ... soyunmağa başlayır. Əvvəlcə qalstukunu, pencəyini çıxardır. Köynəyini çıxarmaq istəyəndə qadın müəllimlər "Ələsgər müəllimin başına hava gəlib"- deyə kabinetdən çıxmaq istəyiblər. Lakin Ələsgər müəllim onları səsləyib:

- Hara gedirsiniz, deyəcəyim sözlər sizə də aiddir – deyir və köynəyi də çıxarır. Maykasını göstərərək:

- Bunu görürsünüz, bu nədir?

- Maykadır də, Ələsgər müəllim – kişi müəllimlər dillənirlər.

- Diqqətlə baxsanız görərsiniz ki, mən maykanı tərs geymişəm. Niyə? Səbəbini siz məndən də yaxşı bilirsiniz, qaça-qaçda, tuta-tutdayam.

BALIQ ƏHVALATI

Dayım tarix elmləri doktoru elmi dərəcəsi almaq üçün Tbilisidə Marksizm-Leninizm İnstitutunda dissertasiya müdafiə etməli idi. Bu münasibətlə dayımın dostlarından ibarət bir dəstə adam

Tbilisiyə gəlib yenicə açılmış "İveriya" mehmanxanasında yer tutmuşdular. Onların hamısı yüksək vəzifəli partiya işçiləri idi. Sovet İttifaqı qəhrəmanı akademik Ziya Bünyadov da onların arasında idi.

Dissertasiya müdafiəsinin müvəffəqiyyətlə keçəcəyinə heç bir şübhə yox idi. Yeganə problem müdafiədən sonra veriləcək banket idi. Problem də ondan ibarət idi ki, dayım banketdə ağ balıq kababının dəlisi olan gürcülərə balıq kababı boyun olmuşdu. Balıq Azərbaycandan gətirilməli idi. Balıq məsələsini dayımın dostu Puşkin (indiki Biləsuvar) rayonunun partiya komitəsinin katibi həll etməli idi. Hesablamalara görə müdafiə saat 14.00-da başa çatmalı idi. Odur ki, balıq saat 10.00-da "İveriya" mehmanxanasının qabağına gətirilməli idi. Mən mehmanxananın qarşısında durub "balığı" gözləyirdim. Saat 10 oldu, balıq gəlib çıxmadı, on birin yarısı oldu, balıqdan xəbər yox. Mən artıq narahat olmağa başladım. Nəhayət, saat 10.55-də mehmanxananın qarşısında bir taksi dayandı. Taksidən gözlədiyim raykom katibi (mən onu dayımgildə çox görmüşdüm) çıxdı və məni görüb:

-Ə, dayına xəbər ver ki, məni ilişdiriblər.

Mən cəld dayımgilin yanına qalxdım. Bakıdan gələn bütün "qırmızı knişkalar" aşağı düşdülər. Milis işçiləri artıq raykom katibini sorğu-suala tutmuşdular. Dayım və dostları milis işçilərinə yaxınlaşıb dəqiqlik üçün öz vəsiqələrini göstərdilər, balığın nə münasibətlə gətirildiyini bildirdilər və onları banketə dəvət etdilər.

- Biz sadəcə olaraq bu balığın kimə və nə məqsədlə gətirildiyini müəyyənləşdirmək istəyirdik. İndi hər şey aydındır, heç bir problem də yoxdur. O ki qaldı banketdə iştiraka, dəvət üçün təşəkkür edirik, biz iş başındayıq. Banketdə bizim sağlığımıza da içsəniz, bəsimizdir – deyib, milis işçiləri bizdən ayrıldılar.

Raykom katibi sonra danışdı ki, balığı Ucar dəmiryol stansiyasına qədər öz xidməti maşınında gətirib. Sonra Ucarda Bakı-Tbilisi qatarına minib Gürcüstana keçəndən sonra gürcü milisinin onu izlədiyini hiss edərək, izi itirmək üçün Tbilisi yaxınlığındakı "Naftluq" stansiyasında qatardan düşüb, taksiyə minib. Bir azdan milisin taksini "müşayiət etdiyini" görüb. Axırı da sizə məlumdur.

İndi qalırdı balığı restorana vermək və banketə hazırlıq. Məsləhət bildilər ki, elə banketi "İveriya" mehmanxanasının restoranında təşkil etsinlər (nə qədər ki, balıq gəlməmişdi banketdən söhbət gedə bilməzdi). Odur ki, restorana gəldik və məsələni açdıq. Restoranda bizə bildirdilər ki, balığı heç cür qəbul edə bilməzlər, çünki Tbilisidə bir qram da ağ balıq yoxdur. Elə iyinə gəlib atamızı yandırarlar. Bizi inandırdılar ki, nəinki onlar, Tbilisinin heç bir restoranı bu balığı qəbul edib özünə iş açmaz. Yeganə bir yeri məsləhət bildilər ki, o da meşənin içində gözdən uzaq bir yerdir.

Əlacsız qalıb həmin yerə gəldik və doğrudan da balığı qəbul etdilər. Bura uzaq olsa da, çox mənzərəli, səfalı bir yer idi.

Dissertasiya müdafiəsi səssiz-küysüz keçdi, Elmi Şura üzvləri yekdilliklə səs verərək qərar qəbul etdilər, elə oradan da dəvət olunmuş qonaqlarla birlikdə maşınlara, avtobuslara oturaraq, banket təşkil edilən restorana yollandılar.

Məclisin idarə edilməsi yaraşıqlı, boybuxunlu, cavan, tarix elmləri doktoru, professor, Tbilisinin Lenin rayonunun partiya komitəsinin birinci katibinə həvalə edilmişdi.

Tamadanın elə ilk tostu məclisdə az da olsa çaşqınlıq yaratmışdı. O, azərbaycanlının Tbilisidə yüksək elmi dərəcə almasını alqışlamış, gürcüləri də Bakının elmi potensialından istifadə etməyə çağırmışdı. Məclis iştirakçılarından kiminsə bu cür əməkdaşlığa ermənilərin də dəvət olunması təklifinə tamadanın cavabı belə olmuşdu:

- Moskva onlara daha yaxındır, qoy onlar orada müdafiə etsinlər. – Sözlərinin məclisdə çaşqınlıq yaratdığını (opponentlərin biri erməni idi, o, başının dəstəsi ilə məclisdə iştirak edirdi) hiss edən tamada izahat verməyə məcbur olmuşdu:

- Mən o mənada belə deyirəm ki, ermənilərin Moskvada imkanları daha geniş, arxaları daha güclüdür.

Tamada məclisi gürcülərə xas olan bir məharətlə aparırdı. O, Ziya Bünyadovun şərəfinə də sağlıq söylədi:

- Azərbaycanda çoxları elə bilir ki, onların ya-

nında azərbaycanlı, iki dəfə Sovet İttifaqı qəhrəmanı yoxdur. Halbuki, onlardan biri mənim yanımda oturub. Amma sual oluna bilər ki, bəs Ziya Bünyadovun döşündə niyə bir "Qızıl ulduz" parıldayır? Tamada bunun tarixçəsini məclis iştirakçılarına çatdırdı.

Tamadanın son tostu da yadımdadır:

- Əziz dostlar, başqalarını bilmirəm, mən ömrümdə ilk dəfədir ki, doyunca balıq kababı yedim (bunu raykomun birinci katibi deyirdi). Gəlin bu badələri bu gözəl neməti bizə sevdirən, bizi doyunca yedizdirən azərbaycanlı dostlarımızın şərəfinə qaldıraq!

TƏLƏBƏLƏRİN DƏRSƏ DAVAMİYYƏTİNİ 100%-Ə QALDIRAQ

Vaxtilə Bakıda Rostov Dəmiryolu Mühəndisləri İnstitutunun filialı fəaliyyət göstərirdi. Maddi-texniki bazasının zənginliyi, unikal laboratoriyalar, kabinetlər, müəllim və tələbələr üçün yaradılmış şərait başqa ali məktəblər üçün nümunə ola bilərdi. Lakin kollektiv daxilində gedən çəkişmələr, dedi-qodular, intriqalar normal fəaliyyətə mane olurdu. Yoxlama komissiyalarının biri gedir, o biri gəlirdi. Qəribə burası idi ki, kollektivdə bu qeyri-normal atmosferin yaranmasında filial direktorlarının rolu az deyildi. Nə direktorlar, nə də aranı qızışdıran adamlar üstündə oturduqları budağı kəsdiklərini bilə-bilə pis əməllərindən əl çəkmirdilər. Odur ki, filialda tez-tez direktor dəyişikliyi baş verirdi.

Növbəti dəfə filiala respublikada tanınmış, gözəl təşkilatçı, nizam-intizam sevən, işinə məsuliyyətlə yanaşan bir şəxsi direktor təyin etmişdilər. Qısa bir müddətdə filialda əsaslı təmir aparılmış, qapı-pəncərələr dəyişdirilmiş, hər yerdə səliqə-sahman yaradılmış, maddi-texniki baza daha da zənginləşmiş, təchizat işi qaydasına düşmüşdü.

Bütün bu görülən işlər gərəkli olsa da, ali məktəb üçün əsas məsələ tədrisin təşkili, vəziyyəti, təhsilin keyfiyyəti məsələləridir. Bu məsələlərlə bağlı geniş iclası yeni direktor ilk dəfə idi ki, çağırırdı. Odur ki, bu sahələrə məsul şəxslər iclasa böyük səylə hazırlaşmışdılar. Yeni direktor qarşısında ilk imtahanlarını verirdilər. Hesabat məruzəsi ilə direktorun tədris işləri üzrə müavini çıxış etdi. Fakültə dekanları, bölmə müdirləri də öz sahələrinə uyğun çıxış etdilər. Direktor çıxış edənlərə diqqətlə qulaq asır, müvafiq qeydlər aparırdı. Xüsusilə, göstərilən bütün rəqəmləri, faizləri öz dəftərçəsində qeyd edirdi. Nəhayət, çıxışlar qurtardı. Direktor iclasa yekun vurmaq üçün çıxışa başladı:

- Bilirsiniz ki, mən böyük bir müəssisənin direktoru işləmişəm. Mən bu müəssisəni respublikada ilk "kommunist əməyi müəssisəsi"nə çevirmişəm. Həm müəssisəmiz, həm də mən özüm dövlətin ən yüksək ordeninə layiq görülmüşük. İşlərim də qaydasında gedirdi. Məni filiala direktor təyin edəndə buradakı vəziyyəti mənə başa salmışdılar. Məni bura bu dözülməz vəziyyəti düzəltmək üçün göndəriblər. Mən çətinliklərə öyrənmiş adamam, odur ki, burada qarşılaşacağım çətinliklər məni narahat eləmirdi, vəziyyətin tezliklə düzələcəyinə əminliklə mən bu vəzifəyə razılıq verdim. Mən qərara almışdım ki, kadr dəyişiklikləri etməyəcəyəm. Mövcud kadrlarla işləyəcəyəm. Ancaq indi görürəm ki, belə getsə, bəzi adamlarla vidalaşmalı olacağıq. Çıxış edənlər mənim direktorluq etdiyim dövrdə irəliləyişlərdən elə həvəslə danışırlar ki, elə bil böyük bir iş görülüb. Rəqəmlərə fikir verin, deyirsiniz ki, tələbələrin müvəffəqiyyət qiymətləri 12% artaraq 67%-dən 79%-ə, dərsə davamiyyət 17% artaraq 74%-dən 91%-ə qalxıb və siz bunu irəliləyiş kimi mənim gözümə soxursunuz. Mən isə belə işi yarıtmaz hesab edirəm. Mən rəhbərlik etdiyim müəssisədə 115-120%-dən aşağı göstəricini qəbul etmirəm. Siz isə 80-90%-i irəliləyiş kimi təqdim edirsiniz. Əgər mənimlə işləmək fikriniz varsa, işə münasibət kökündən dəyişməlidir.

Kimsə yerdən təkliflə çıxış etdi: semestrin axırına üç ay var, tələbələrin dərsə davamiyyətini hər ay 10% qaldırsaq, semestrin axırına dərsə davamiyyət 120%-ə çatar.

- Bu artıq sizin işinizdir, əgər işləmək istəyirsinizsə - direktor iclası qapalı elan etdi.

XƏLİL MƏCİDOĞLU
E-mail: khalil_majid@box.az

UŞAQ ƏDƏBİYYATININ BÖYÜK PROBLEMLƏRİ...

«Uşaqlar üçün nəzərdə tutulan əsərlər canlı danışıq dilində yazılmalıdır»

«Mən istəyirəm ki, uşaq klassik dünya ədəbiyyatını oxusun. Amma nə mağazalarda bunu tapmaq olur, nə də kitabxanalarda. Yaxşı olardı ki, dili mükəmməl bilmək üçün Azərbaycanca oxusun».

Nailə Yaqublunun fikrincə, uşaqlara təklif olunan müasir Azərbaycan uşaq ədəbiyyatında dil qüsurları, təfəkkür kasadlığı var: «Bəlkə də peşəmdən irəli gəlir, mən belə hallara ciddi yanaşıram».

Müasir uşaq ədəbiyyatının ciddi problemləri olması ilə Yazıçılar Birliyinin uşaq bölməsinin rəhbəri şair Qəşəm Nəcəfzadə də razılaşır. Onun fikrincə, Azərbaycan müasir uşaq ədəbiyyatında çatışmayan ən əsas məqamlar uşaq təfəkkürünün, uşaq duyumunun olmamasıdı, uşaqların böyüklər kimi danışdırılmasıdı. Həmçinin süni vətənpərvərlik hisslərilə kütləvi uşaq obrazlarının yaradılması da bu sıraya aid problemlərdəndir:

«Bizdə sovet dövründə bir tərbiyə varıydı ki, uşaq nizam-intizamlı olmalı, sığallı davranmalıdır. Bizdə çox ciddi valideyn intizamı olur, «onu eləmə, bunu eləmə». Amma uşaq dərsdən «iki» də ala bilər, uşaq süd içəndə hər yeri bulaya da bilər».

Daha çox uşaq yazarı kimi tanınmış Zahid Xəlil isə deyir ki, Azərbaycanın müasir uşaq ədəbiyyatına yeni imzalar gəlir, amma onun fikrincə, hələlik bu yük köhnə uşaq yazarlarının çiynindədi. Bəs Azərbaycanda, məsələn, dünyada tanınmış «Uzun corab» Peppi, Karlson, Piter Pen və ya Şerik kimi personajlar varmı? Zahid Xəlil deyir ki, o, özlərini bu personajları yaradan yazarlarla müqayisə etmək istəməzdi: «Biz özümüzü onlarla müqayisə edə bilmərik. Bunların çoxunu Danimarka xalqı yaradıb, onlar da uşaq ədəbiyyatıyla yaşayırlar. Amma bizdə də yaxşı əsərlər yazılır, personajlar var, sadəcə təbliğat yoxdu».

Yazıçılar Birliyinin uşaq bölməsinin rəhbəri Qəşəm Nəcəfzadə isə deyir ki, bu sahəni inkişaf etdirmək üçün uşaq ədəbiyyatının tənqidinə ciddi ehtiyac var, o cümlədən uşaqlar üçün nəzərdə tutulan əsərlər canlı danışıq dilində yazılmalıdır.

Kamran ərklə söylədi
Alma ağacı, salam.
Küskün ağac dilləndi
Yox halım, salam alam.

***

Bilir dost, bilir yağı,
Durublar sacayağı
Bir-birinin dayağı
Bakı-Təbriz-Ankara.

***

Cənazələr yol edir,
Bir-birindən qüdrətli,
Güclü çiyinlər üstə.

Bu nümunələr uşaqlar üçün yazılan, hətta bəziləri dərsliklərə salınan şerlərdən götürülüb. 12 yaşlı qızının mütaliəsinin qayğısına qalan pedaqoq Nailə Yaqublu deyir ki, o, məzmunu, mənası olmayan bu cür şerlərə rast gəldiyi üçün müasir uşaq ədəbiyyatı almaqdan imtina edib, yalnız klassik dünya uşaq ədəbiyyatına üstünlük verir, amma bu kitabları da tapa bilmir:

Səadət AKİFQIZI

GEYİMLƏ BAĞLI QADAĞA

Dəblə geyinmək İranda hökumətə etirazın formasıdır

İran qadınları deyirlər ki, onlar ikili həyat tərzi keçirirlər. Küçədə gəzməyə çıxanda, örtülü geyinir, qonaq gedəndə, dostlarıyla yığışanda isə ürəklərinin səsinə qulaq asır, qolsuz köynək, dekolte, qısa şalvar - nə istəyirlər, geyinirlər.

Jurnalist İraj Cəmşidi bildirir ki, hökumətin camaatın şəxsi həyatına qarışması əhalini, xüsusilə də şəhər adamlarını məyus edib. Bəzi adamlar qadağalara məhəl qoymamağa çalışırlar: «Rəsmi qadağalar camaatın geyim tərzini dəyişə bilməyib. Bəzən bu qadağaların əks effekti olub. Geyimlər əvvəlkindən daha liberaldır. Bu, o deməkdir ki, camaat qadağalara müqavimət göstərir».

Avropanın məşhur kosmetika şirkətlərindən birinin Tehrandakı təmsilçisi Əli Mohəmmədi də belələrindəndir. O deyir ki, pulunun çoxunu paltara, saçına, bir də dərisinə qullaq etmək üçün aldığı əşyalara xərcləyir. Çünki dəblə geyinmək onun üçün həm də hökumətə etirazın formasıdır. Dediyinə görə, elə az əvvəl saçlarını yeni formada kəsdirib, qaşlarını aldırıb. Halbuki İran qanunları hamıdan ciddi geyim tələb edir, qadınlar hicabsız, başı örtüksüz gəzə bilməzlər. Kişilərə də qalstuk, qolu qısa köynək, gödək şalvar geyinməyə, müxtəlif saç düzümüylə gəzməyə icazə verilmir. Qaydaları pozanları cərimə, hətta həbs cəzası gözləyir. Amma bütün bu qadağalar Əli Mohəmmədinin vecinə deyil. Deyir ki, onun kimi iranlı milyonlarladır. Sadəcə, küçəyə çıxanda adi, örtülü paltarda gəzir, imkan olan kimi öz üslüblarında geyinirlər: «Mən tez-tez «Fashion» TV-yə, «World Fashion» kimi kanallara baxıram. Ən çox sevdiyim marka «Dolce and Gabbana»dır. Paltar alanda bu üslubu dəyişməməyə çalışıram».

Tehranda məşhur brendlərin dəbdəbəli mağazaları çoxdur. Həmin mağazalarda Qərb modelyerlərinin hazırladığı paltarları, o cümlədən İranda qadağan olunan dar şalvarları, açıq paltarları almaq olar. Amma Əli Mohəmmədinin dediyinə görə, məşhur brendlərin çoxu, məsələn, «Kristian Dior», ya da «Versace» İranda kosmetika satır, belə markaların İranda paltar mağazaları olmur.

Ancaq bu da iranlıların dəbə meylinin qarşısını ala bilmir. Məşhur markadan olan 600 dollarlıq ayaqqabının eynisini İranda 60 dollara almaq asandır. Jurnalist Cəmşidi deyir ki, geyimlə bağlı qadağa elə-belə məsələ deyil. İran camaatı istənilən an ayağa qalxa bilər, ona görə hökumət hər yerdə nəzarəti saxlamağa çalışır.

DÜNYANIN QƏRİBƏ QANUNLARI

Dünyanın müxtəlif bölgələrinin özünəməxsus bəzi qayda-qanunları insanı təəccübləndirməklə yanaşı, həm də güldürür.

İnanırıq ki, belə qaydalarla tanışlıq sizin üçün də maraqlı olacaq:

- Böcəklər də daxil olmaqla heç bir canlının öldürülməsinə icazə verilməyən ABŞ-ın Arkanzas ştatında ərin arvadı ayda bir dəfə döyməsinə normal baxılır. Bu bölgədə həyat yoldaşını ayda bir dəfədən artıq döymək isə qadağandır.

- Kaliforniyanın Sakit okean sahillərində kəpənəklərin narahat edilməsinə icazə verilmir.

- Kanadada yağış yağanda çəmənlikləri sulamaq olmaz. Kanadanın Kanata bölgəsində qapı və pəncərələr mütləq çəhrayı rəngdə boyanmalıdır.

- Bazar günləri İsveçrədə camaşır asmaq, Şotlandiyada isə balıq tutmaq qadağandır.

- Sinqapurda metroda saqqız çeynəyən həbs olunur.

- Danimarkada avtomobilinin qarşısına at arabası çıxan şəxs maşınını kənara çəkmək məcburiyyətindədir.

- Kanadanın Oşava ştatında ağaca çıxmaq, Ottava şəhərinin Bank Strit küçəsində dondurma yemək, Toronto şəhərinin Yonq küçəsində isə bazar günləri ölü atları sürüyərək aparmaq qadağandır.

- Avstraliyanın Viktorio ştatında bazar günləri çəhrayı şalvar geymək qadağandır. Eyni ölkədə azyaşlıların siqaret alması qadağandır, ancaq çəkməsi sərbəstdir.

- Pensilvaniyada hamamda mahnı oxumaq və qapısı açıq olan soyuducunun qarşısında yatmaq, Oklohomada ayaqqabı ilə yatmaq, Nyu - Cersidə şorbanı səsli içmək qəti qadağandır.

- İndianada vətəndaşların kiminsə dalınca danışmasına icazə verilmir.

- İndiana ştatında meymunların siqaret çəkməsi və teatra getməmişdən əvvəl sarımsaq yemək qadağandır.

USAQ DÜNYASI

"Xəzər Xəbər" toplusunun məktəblilər üçün əlavəsi

MƏN KİMƏ OXŞAMAQ İSTƏYİRƏM...

Hər birimiz gənc yaşlarımızda bu sualla çox rastlaşmışıq. Daxili dünyamızda həmişə bənzəmək istədiyimiz bir "qəhrəman" olub.

Gəlin, "Dünya" məktəbi 6[b] sinfinin şagirdlərinin inşaları ilə tanış olaq və uşaqlıq illərimizi bir daha xatırlayaq...

...Mənim idealım öz valideynlərimdir. Onlara baxanda çox fərəhlənirəm. Mənə belə gözəl valideynlər bəxş etdiyinə görə Allaha hər gün şükr edirəm. Mənə elə gəlir ki, bütün uşaqlar öz valideynlərini sevməlidir. Ona görə ki, onlar bizi boya-başa çatdırmaq üçün min bir əziyyətə sinə gərirlər. Mən də öz valideynlərim kimi ədalətli, mərhəmətli, əməksevər olmaq istəyirəm. Bunun üçün çalışıram ki, dərslərimi yaxşı oxuyum, mən valideynlərimlə necə fəxr edirəmsə, onlar da gələcəkdə mənimlə fəxr edə bilsinlər.

...Məni daha çox anama bənzədirlər. Anam qadın kimi nə qədər nəcib olsa da, kişi kimi mərd qadındır. O, bizimlə çox mülayim rəftar edir. Anam daim ehtiyacı olan insanlara kömək edir. Həmişə mənə başa salır ki, heç vaxt insanların qəlbinə toxunmayım, çünki onlara bu qəlbi biz yox, ulu tanrı bəxş etmişdir...Mən atam kimi həkim olmaq istəyirəm. Bu işin öz çətinliyi olduğunu başa düşürəm. Amma onu da bilirəm ki, bu sənət çətin olsa da müqəddəs, şərəfli bir sənətdir. Mən də atam kimi insanlara gözəllik və sağlamlıq bəxş etmək istəyirəm. Mən bunu xəyalıma gətirəndə çox xoşbəxt oluram.

...Hamımız çalışaq ki, həyatda yaxşı insanlar olaq. Vətəni sevən, onun uğrunda canından keçməyə hazır olan bir insan! Onda vətənimiz Azərbaycanın da gələcəyi gözəl olar!

Aybikə Qələndərli

***

İnsan bütün həyatı boyu nümunələrlə yaşayır, sevdiyi, hörmət bəslədiyi adamların şəxsi nümunəsi ilə tərbiyələnir. Həyatda gördü-

yümüz hər hansı tanınmış şəxsə, əsərlərdə rast gəldiyimiz gözəl insana, filmlərdə gördüyümüz müsbət qəhrəmanlara oxşamaq hər an bizim ağlımızdan keçə bilər. Mənim isə həyatda ən çox sevdiyim şəxs anamdır... Anamın nümunə götürməli bir çox gözəl xasiyyətləri var...

Günay Abbasova

***

Hər bir insanın bənzəmək istədiyi şəxs vardır... Çox vaxt qızlar anasına, oğlanlar isə atasına bənzəmək istəyirlər. Atasında, anasında olan xüsusiyyətləri özlərində əks etdirmək istəyirlər..

Rufanə Ağayeva

***

...İdealım anamdır. Anam bizə yalan danışmamağı, böyüklərə hörmət etməyi, tərbiyəli olmağı öyrədir. Bizim dünyagörüşümüzün hərtərəfli olması üçün əlindən gələni edir. Anamın bütün gözəl xüsusiyyətlərini özümə nümunə götürməyə çalışiram. Lakin anama oxşamaq istəsəm də, mən daha çox yalnız özüm olmaq istəyirəm. Sadəcə olaraq anamda gördüyüm bütün yaxşı xüsusiyyətləri mənimsəyib, bu həyatda vətənini sevən bir gənc kimi yetişmək istəyirəm...

Şəfiqə Hacıyeva

***

...Mən cəsur adamlara oxşamaq istəyirəm: Tomris, Nigar, Mehriban Əliyeva... Tomrisi ona görə sevirəm ki, o, dözümlü və iradəli qadın olub. Oğlunun ölümünə baxmayaraq o, öz səbri ilə düşmənə qalib gələ bilib. Nigar isə atasının xalqa etdiyi zülmə dözməyərək dağlara, Koroğlunun yanına qaçdı. Mehriban Əlyeva da çox xeyirxah, əliaçıq və savadlıdır. O, ehtiyacı olanlara yardım əli uzadır. Yüzlərlə insanın təhsil almasına kömək edir...

Ayşə Eyvazlı

***

Çox vaxt anama oxşamaq istəyirəm. Amma elə hallar da olur ki, mən elə özüm kimi qalmaq istəyirəm. Çünki mən hansısa bir insana oxşasam, həyat mənim üçün maraqsız olar... Hərdən də mən cizgi filmindəki "Flora" adlı qıza oxşamaq istəyirəm. Çünki o, sehirli gücə malik olan çox müasir bir qızdır...Bəzən güzgünün qarşısında dayanıb, özümə baxaraq düşünürəm ki, necə olub Allah məni elə yaradıb ki, mən heç bir insana oxşamıram? Bu sualın cavabını hələ də tapmamışam... Mənim üçün əsas deyil ki, mən kiməsə oxşayım, əsası necə varamsa elə də qalmaqdır...

Aygün Xürrəmli

***

Mən balaca olanda atama oxşamaq istəyirdim. Atamı daim xəyallarımda qəhrəman kimi canlandırırdım. İndi də onun gördüyü hər iş məni sevindirir və məqsədimə çatmağa kömək edir. Mən də böyüyəndə atam kimi ailəsini sevən, xeyirxah, sadə bir insan olmaq istərdim...

Anar Rzayev

***

Beləcə, şagirdlərin iç dünyası ilə az da olsa tanış olduq. Böyüklərdən ən gözəl keyfiyyətləri mənimsəməyə çalışan bu yeniyetmələrə həyat yollarında uğurlar arzulayırıq.

Mədinə RZAYEVA,
Dünya məktəbinin müəllimi

Learning the Craft of Teaching

Student Internships

Student internships have long been considered a rite of passage into the teaching profession. Contrary to the opinion held by many, learning the craft of teaching is complicated and master teachers are not only knowledgeable about content, curriculum and pedagogy but also know how to transmit that knowledge to the students in their care.

Student internships provide real life contexts for novice teachers to bridge theory with practice and are critical to a future teacher's development. Student interns have opportunities to develop their understanding of the developmental nature of learners through observing children in classrooms and then applying this knowledge as they plan for lessons and implement them. As student interns reflect on their experiences, they develop new knowledge about the processes of teaching and learning and future lessons are informed by this new understanding.

Supervising teachers have an important role to play in internships and ideally are dedicated teachers with years of experience who have learned the fine art of crafting their lessons to meet the individual needs of students. Lee Schulman, a distinguished educational researcher, uses the metaphor of 'wisdom of practise' to describe the pedagogical knowledge that experienced teachers possess. Supervising teachers are role models for interns and pass much of the knowledge they have gained to those under their tutelage.

Student Internships at Dunya School

Spring Semester 2008 students enrolled in an internship course in the School of Humanities and Social Sciences had the opportunity to practice new skills learned under the supervision of supervising teachers at Dunya School. Madina Teymur, Gulnara Feyruz, and Elnara Ismayilova were assigned to the 1st and 3rd grade English classes of Gunel Mammadova and the 2nd grade class of Shafug Abilova. Both Ms. Mammadova and Ms. Abilova are experienced teachers who have taught English for several years at Dunya School.

The interns assumed the duties of regular classroom teachers and were involved in all of the responsibilities that teachers do including observing students, planning, teaching, assessing student's learning, and managing classes. They implemented techniques they had learned from theoretical classes at Dunya including interactive teaching, shared reading approaches, and teaching realia. They were encouraged to teach intelligently, critically, and interactively.

Personal, Familial and Cultural Experiences of Interns

Past experiences of teaching and learning influence the work of future teachers. While the personal and familial backgrounds of the interns varied, they all brought important experiences with them to the classroom. Madina has spent years tu-

toring small groups of children and brought to her lessons the considerable skills she learned over the years. Gulnara had no previous teaching experience but as the mother of two small children knew child development from first-hand experiences. She understood that children learn through concrete experiences and need to be active. Elnara has tutored university students at Khazar University but also has clearly benefited from the stories told by her mother, who is a teacher. In fact according to research children of educators learn about the profession through the informal dialogue that occurs in the home.

The interns entered the classrooms with well thought out plans and exposed children to interesting and novel lessons including: 1) learning and practicing vocabulary through memory games; 2) playing vocabulary games with flash cards; 3) learning from experience charts; 4) writing their own ideas and thoughts; 4) participating in the class creation of a 'big book'; 5) listening to stories; and 6) speaking about new concepts.

Reflections of Student Internships

Observation is the 'starting point' for teaching and was apparent in the work the interns did. Madina reflected on her observations:

My observations of students were often surprising. When I gave them opportunities to write their own ideas instead of filling in blanks on worksheets, I realized they knew vocabulary that was not taught in the class and expressed themselves in very creative and novel ways.

Madina went on to make the following comment:

I noticed that students like and learn from concrete examples. They don't like to sit for long periods of time and they love to demonstrate concepts through action.

Peer teaching is extremely valuable and Gulnara made the following observation:

Students learn from talking to each other. They feel safe in discussing ideas with their peers. The weaker students learn from the stronger students and the more experienced language speakers gain more confidence as they practice new speaking skills.

Uncovering student's misconceptions is difficult but necessary if students are to learn. Elnara understood this during a lesson on 'time.' Through careful questioning she realized that students did not know 'time concepts' and because their prior experiences were limited they could not make generalizations from Azerei to English. Elnara 'reflected in action', a term conceptualized by Donald Schon, and changed her teaching strategies to scaffold student's learning.

Reflections of Supervising Teachers

The supervising teachers, Ms. Mammadova and Ms. Abilova, served as role models for the interns. They also were caring mentors and gave the interns the self-confidence a novice teacher needs for future development. Ms. Mammadova made the following comment:

The internships brought a lot of excitement to the classroom. Children enjoy different people and learn from a variety of approaches. The interns were enthusiastic and motivated the children to learn.

The interns did very good work and I believe they will be good teachers in the future.

Conclusion

Internships provide future teachers supportive and caring environments that allow them the freedom to take risks, make mistakes, learn and grow. Furthermore, internships provide opportunities for all those involved.The interns at Dunya learned from their real life experiences and the mentoring they received from their supervising teachers. Supervising teachers had opportunities to share their knowledge, transmit it and transform it for others. As a result of the acknowledgment they received as practicing professionals, they aspired to new standards of excellence. And finally, and most importantly, the students at Dunya School benefited from the professional efforts of all those involved.

Written by **Kathryn NOORI**

ƏDƏBİYYAT LÜĞƏTİ

CINAS - Şəkilcə eyni, mənaca müxtəlif olan söz. Şeirdə özünü, əsasən, qafiyələrdə göstərir. Nəsr əsərlərində formaca eyni, mənaca müxtəlif olan söz **omonim** adlanır.

CIĞA - Azərbaycan poeziyasında, xüsüsən aşıq şeirində gəraylı, qoşma, təcnis, müxəmməs kimi kiçik həcmli nümunələrin bəndləri içərisinə əlavə olunaraq məzmun və forma rəngarəngliyi yaradan qısa misralar.

CÜNG - farsca gəmi anlamında olan **cong** və ya **cəng** sözündəndir. Ərəbcə **səfinə** deməkdir. Şeir dəftəri (bəzən dəftər dar, uzun ölçülü olur), əlyazma şeir məcmuəsi. Keçmiş vaxtlarda, daha çox ədəbiyyat maraqlıları, savadlı kimsələr başqalarının şeirlərindən xoşladıqları müəyyən misranı, beyti, bəndi, bəzən bütöv şeiri, yaxud əsəri dəftərinə köçürüb saxlayarmış. Əlyazma şəklində olan belə dəftərlər – cünglər ədəbiyyat tarixinin öyrənilməsində müstəsna dəyər daşıyır.

DASTAN - şifahi xalq ədəbiyyatında həcmcə ən böyük olan epik əsər. Dastana " boy" ,"qol", "hekayət", "qissə", " əhvalat","nağıl", " epos" da deyilir. Dastan, əsasən, nəzmlə nəsrin növbələşməsi prinsipi əsasında yaranır. Daha çox qəhrəmanlıq və məhəbbət mövzusunda olan dastanların seir hissəsini ozan və aşıqlar qopuz, saz havasına uyğun çalıb-oxuyur, " nağıl", "yurd yeri" adlanan hissəsini isə əhvalat şəklində danışır.

DAXILI QAFIYƏ - şeirdə misraların sonunda yox, daxilində sözlərin bir-biri ilə səslənmə baxımından ahəngdarlığı. Daxili qafiyədə misranı təşkil edən sözlərdən biri ya özündən əvvəlki, ya da özündən sonrakı sözlə qafiyələnir. Bu söz bəzən də misranın sonundakı sözlə həmqafiyə olur.

DEKLAMASIYA - poeziya, nəsr, dram əsərlərindən seçilmiş müəyyən parçanın, hissənin bədii söyləmə məharəti. Natiqlik sənətində mühüm rol oynayır.

DEDEKTIV ƏDƏBIYYAT - bədii ədəbiyyatın bir növü. Faktların məntiqi təhlili ilə sirli cinayətlərin açılmasından, xəfiyyələrin (dedektivlərin) macəralarından bəhs edən roman, povest, hekayə. Dedektiv ədəbiyyatda konflikt - ziddiyyət, bir qayda olaraq, ədalətin qanunsuzluqla toqquşması üzərində qurulur.

DİALOQ - hər hansı bir bədii əsərdə iki və ya daha artiq şəxsin bir-biri ilə danışması.

DİBAÇƏ - orta yüzilliklərdə Şərq ədəbiyyatında əsərin, yaxud külliyyatın müqəddiməsi, giriş hissəsi.

DİDAKTİK ƏDƏBİYYAT - elmi müddəaların, əxlaq normalarının, pedaqoji- nəsihətamiz məzmunun üstünlük təşkil etdiyi ədəbi əsərlər.

DİFİRAMB - mədhnamə, tərifnamə. Difiramb əvvəlcə xalq mahnısı, sonra isə oda,yaxud himnə yaxın ədəbi forma olubdur.

DRAM - bədii ədəbiyyatın başlıca növlərindən biri. Əsərdəki iştirakçıların danışığı formasında yazılmış, müəllifin nitqi olmayan (remarkalardan savayı) ədəbi əsər. Müxtəlif növləri vardır: faciə, komediya, dram, vodevil və s.

DÜBEYT - klassik ədəbiyyatda xüsusi şeir forması, şəkilcə rübaiyə yaxın olsa da, vəzn və məzmununa görə ondan fərqlənir. Rübai, adətən, həzəc bəhrində yazıldığı halda, dübeyt əruz vəzninin bütün bəhrlərində yazılır. Dübeytdən daha çox mərsiyə məzmunlu şeir bəndlərinin arasında işlənilir.

DİVAN ƏDƏBİYYATI - orta yüzilliklərdə,əsasən, əruz vəznində, nisbətən mürəkkəb, çətin anlaşılan dildə, yazılı surətdə yaranan və yayılan ədəbiyyat. Divan ədəbiyyatında müəyyən qayda-qanun gözlənildiyinə görə ona "klassik ədəbiyyat", hökmdarlar, dövlət adamları mədh olunduğuna görə "saray ədəbiyyatı" da deyilmişdir.

DİVANİ - ən çox şifahi xalq yaradıcılığında, aşıq şeirində, bəzən də yazılı ədəbiyyatda işlənilən kiçik həcmli şeir forması. Coşğun, təntənəli, döyüşkən ruhda olur.

Hazırlayanı:
Bəhlul ABDULLA

KİTABXANAMIZIN YENİ KİTABLARI

Azərbaycan-latın-rus-ərəb tibb terminləri lüğəti. – Bakı: Əli Nəşriyyat Evi, 2007. – 600 s. – ISBN 978-9952-25075-9



Global monitoring report 2008. MDGs and the environment: agenda for inclusive and sustainable development. – Washington: World Bank, 2008. – 250 p.

Structural engineering handbook. – 4th ed. – New York: McGraw-Hill, 1997.



World development indicators 2008. – Washington: World Bank, 2008. – 418 p.

English-German, German-English dictionary. – Stuttgart, Ernst Klett Sprachen, 2007. – 1098 p. – with CD-ROM.



Каджар Ч. Старый Баку. – Баку: ОКА «Офсет», 2007. – 204 с. – ил.

Карманный русско-немецкий немецко-русский словарь. – Берлин: Langenscheidt, 2003. – 1200 с.

Томпсон Э. Гунны. Грозные воины степей. – Москва: ЗАО Центрполиграф, 2008. – 256 с.

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən
"Xəzər Xəbər" toplusu yenə sizin görüşünüzə gəlib.
"Xəzər Xəbər"də Azərbaycan, rus, ingilis,
türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,
ali və orta təhsil haqqında yeniliklər,
poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,
elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar, qəribə
sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı yarışlar -
müsabiqələr və s. könlünüzcə olacaq.
"Xəzər Xəbər" gənclərin və oxuyan,
düşünən hər kəsin dərgisidir.
"Xəzər Xəbər"i İNTERNET vasitəsilə dünyanın
hər yerində oxuyurlar.
"Xəzər Xəbər"i siz də oxuyun!
"Xəzər Xəbər"ə siz də yazın!
"Xəzər Xəbər"i şəhərimizdəki qəzet-jurnal
köşklərindən ala bilərsiniz.
"Xəzər Xəbər" ayda iki dəfə çıxır.

Ünvan: Bakı şəhəri,
Məhsəti küçəsi, 11.
Əlaqə telefonları: 421-79-16
421-10-93.
E-mail: xazarxabar@khazar.org